# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# Q Ə R A R I

**Bakı şəhəri** **№ 256/1** **5 noyabr 2014-cü il**

**Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2014-cü il 10 sentyabr tarixli 254/2 saylı «Sərbəst auditorlar və auditor təşkilatlarının 2014-cü ilin I yarımilliyi üzrə təqdim edilmiş hesabatlarının təhlili və müvafiq icmalın hazırlanması» qərarının icrası barədə**

Auditorlar Palatası Şurasının 2014-cü il 10 sentyabr tarixli 254/2 saylı «Sərbəst auditorlar və auditor təşkilatlarının 2014-cü ilin I yarımilliyi üzrə təqdim edilmiş hesabatlarının təhlili və müvafiq icmalın hazırlanması» barədə qərarına uyğun olaraq, Analitik informasiya və təhlil şöbəsi tərəfindən hazırlanmış təhlil materialını müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Analitik informasiya və təhlil şöbəsi (R.Cəfərli) tərəfindən hazırlanmış «Sərbəst auditorlar və auditor təşkilatlarının 2014-cü ilin I yarımilliyi üzrə təqdim edilmiş hesabatların təhlili» barədə məruzə nəzərə alınsın (əlavə olunur);
2. Ölkə iqtisadiyyatında şəffaflığa nail olunması işində auditor xidmətinin rolunu daha da artırmaq məqsədilə tədbirlər sisteminin hazırlanması və tətbiq edilməsi istiqamətində müvafiq işlər həyata keçirilsin;
3. Aparılmış təhlilə əsasən, məcburi auditdən keçmə faizinin aşağı olması ilə bağlı məcburi auditdən yayınmaya görə inzibati məsuliyyətin tətbiqi mexanizmlərinin müəyyən edilməsi istiqamətində müvafiq qurumlarla birgə tədbirlər həyata keçirilsin;
4. Palata sədrinin elmi-metodik məsələlər üzrə müşavirinə (N.Talıbov) və Analitik informasiya və təhlil şöbəsinə (R.Cəfərli) tapşırılsın ki, məcburi auditdən keçmənin vəziyyətinə dair informasiya sisteminin yaradılması istiqamətində müvafiq işləri həyata keçirsinlər;
5. Məcburi auditin ümumi müqavilə məbləğində xüsusi çəkisi aşağı olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, öz fəaliyyətlərinin genişləndirilməsi üçün müvafiq tədbirlər görsünlər;

1. 5 qabaqcıl xarici investisiyalı auditor təşkilatının:

- "Baker Tilly Audit Azərbaycan" MMC;
- "RSM Kapital Karden" MMC;

- “BDO Azərbaycan” MMC;
- “HLB Azərbaycan” MMC;
- “Premium Audit” MMC,

yerli auditor təşkilatının:
- “Biznes-Audit”MMC;
- "G & A" auditor firması;
- "L.B. Audit Xidməti" MMC;
- "İqtisadçı Audit" MMC;
- "Kaspian Konsaltinq" auditor şirkəti və

sərbəst auditorların:
- Abbaslı Namiq;
- İsgəndərov Səməd;
- Hüseynov Şəmşinur;
- Ağayev Akif;
- İsgəndərov Eldəniz məcburi auditin ümumi müqavilə məbləğində xüsusi çəkisinin yüksək olması qeyd olunsun;

7. Palatanın müvafiq struktur bölmələrinə tapşırılsın ki, 2014-cü ilin I yarımilliyi üzrə nəticələrinə görə aşağı göstəricilərə malik auditor təşkilatları və sərbəst auditorların problemlərinin öyrənilib əməli köməklik göstərilməsi təmin edilsin;

8. Auditorlar Palatasının 2015-ci il üzrə iş planında auditdə təmərküzləşmənin həyata keçirilməsi və milli audit təşkilatları siyahısında işçilərin sayına və geniş xidmət potensialına mailk təşkilatların yaradılması üzrə təşkilati-hüquqi tədbirlərin hazırlanması həyata keçirilsin;

9. Dövlətin, təsərrüfat subyektlərinin və auditorların mənafelərini müdafiə etmək, cəmiyyətdə maliyyə şəffaflığının artırılmasında auditin rolunu yüksəltmək, məcburi auditdən keçməli olan təsərrüfat subyektlərini auditə cəlb etmək məqsədilə, auditin mövcud problemləri və inkişaf istiqamətləri mövzularında mətbuatda mütəmadi olaraq materiallar dərc etdirilməsi, habelə Palatanın rəsmi internet səhifəsindən istifadə etməklə maarifləndirmə, məlumatlandırma və interaktiv sorğuların aparılması işləri davam etdirilsin;

10. Bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**